Xalq qəzeti.- 2024.- 30 aprel, № 87.- S. 3

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 232** **Bakı şəhəri, 26 aprel 2024-cü il**

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki publik hüquqi şəxslərin fəaliyyətinin təmin edilməsi haqqında**

"Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının 8.1.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Regional Su Meliorasiya Xidmətinin Nizamnaməsi" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin Nizam-naməsi" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** "Su və Meliorasiya Elmi Tədqiqat İnstitutunun Nizamnaməsi" təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** "Tikilməkdə Olan Obyektlərin Müdiriyyətinin Nizamnaməsi" təsdiq edilsin (4 nömrəli əlavə).

**5.** "Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitu-tunun Nizamnaməsi" təsdiq edilsin (5 nömrəli əlavə).

**6.** "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 mart tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 257 (Cild I); 2024, № 1, maddə 105) və "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Nizamna-məsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 17 iyun tarixli 149 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 576 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***